QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**YAP Sədrinin müavini Tahir Budaqov Çin Kommunist Partiyasının nümayəndə heyəti ilə görüşüb**



3

№ 056 (7466)

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

24 iyul 2026-cı il.
Qiyməti 1 manat

# Azərbaycan-Almaniya strateji tərəfdaşlığı



2

*Prezident İlham Əliyev: "Azərbaycan-Almaniya əlaqələri bütövlükdə bölgəmizdə əməkdaşlığa, sülhə töhfəsini verəcək"*

# Fransanın köhnə qorxusu



5

*Fransa Aİ-nin əsas geosiyasi gücü niyə ola bilmir?*

**İqlim dəyişikliyi Avropanı qurudur: insanlar ölür, böhran böyüyür**



7

**Zərdabi ömründən dəqiqələr**



4

**Qan analizi ilə orqanlarınızın yaşını öyrənmək mümkün olacaqmı?**



8

## Gəmiçiliyin inkişafında yeni dövr başlayır



7

## Dünya 15 yaşa qədər uşaqlar üçün sosial şəbəkələri qadağan edir - biz kimi gözləyirik?



4

# Azərbaycan-Almaniya strateji tərəfdaşlığı

## *Prezident İlham Əliyev: "Azərbaycan-Almaniya əlaqələri bütövlükdə bölgəmizdə əməkdaşlığa, sülhə töhfəsini verəcək"*



***Azərbaycanın Avropada ən vacib siyasi-iqtisadi tərəfdaşlarından biri olan Almaniya əlverişli coğrafi mövqeyinə, zəngin təbii resurslarına və demokratik inkişaf səviyyəsinə görə Cənubi Qafqazın lider dövlətinə çevrilmiş ölkəmizlə əməkdaşlığın daha da dərinləşməsinə maraq göstərir.***

Etibarlı tərəfdaş kimi münasibətlərin ildən-ilə inkişaf etdirilməsində dövlət başçılarının qarşılıqlı səfərləri önəmlidir. Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra ölkəmizlə Almaniya arasında diplomatik münasibətlər qurulmuşdur. Ötən müddət ərizində, diplomatik münasibətlərin yaranmasından sonra Azərbaycan və Almaniya arasında əlaqələr mütəmadi olaraq inkişaf edib. Prezident Heydər Əliyevin 1-4 iyul 1996-cı il tarixdə Almaniya Prezidenti Roman Hersoqun dəvəti ilə bu ölkəyə rəsmi səfəri zamanı ölkələr arasındakı əməkdaşlığın xüsusiyyətləri aydın şəkildə müzakirə edilib, siyasi, iqtisadi və elmi texniki əməkdaşlıq sahəsində beş müqavilə imzalanıb. Ötən illər ərzində Almaniya ilə Azərbaycan arasında müdafiə, siyasi təhlükəsizlik, terrorizmə qarşı mübarizə sahəsində uğurlu əməkdaşlıq aparılıb. Ulu Öndərin siyasi kursunun davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev 24-26 avqust 2004-cü ildə Almaniya Prezidentinin dəvəti ilə bu ölkəyə rəsmi səfər edib və ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafı, qarşılıqlı siyasi əlaqələrin vəziyyəti, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Bu və ya digər rəsmi səfərlər ölkələr arasında olan əlaqələrin möhkəmlənməsinə təsirini göstərib. Ölkəmizin Avropanın enerji təminatının şaxələndirilməsində, TAP, TANAP kimi nəhəng enerji layihələrinin həyata keçirilməsində, eləcə də "Şərq tərəfdaşlığı" Proqramında mühüm rol oynaması əlbəttə ki, Almaniyanın ölkəmizə marağının artmasında rol oynayıb. Həm Almaniya, həm də Avropa İttifaqı üçün tərəfdaş olan Azərbaycan Almaniyanın və Avropa İttifaqının enerji təchizatı üçün böyük potensiala malik olan ölkəyə çevrilib.

### "ÖLKƏMİZ ARTIQ ALMANİYA VƏ AVSTRİYAYA DA QAZ İXRAC EDİR"

Azərbaycan Prezidenti İlham Əliyevin İyulun 21-də Almaniyaya işgüzar səfəri əlaqələrin davamlığının təzahürüdür. Səfər çərçivəsində Berlində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə geniş tərkibdə görüşü olub. Almaniya Prezidenti Azərbaycana səfərini məmnunluqla xatırlayıb. Frank-Valter Ştaynmayer dünyada və regionda cərəyan edən hadisələr fonunda Azərbaycanı və Almaniyanı sabitlik adası kimi xarakterizə edib. O, Azərbaycan-Ermənistan sülh gündəliyində əldə olunmuş nailiyyətlər münasibətilə təbriklərini çatdırıb. Almaniya Prezidenti Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rolu xüsusi qeyd edib. Dövlətimizin başçısı da öz növbəsində Frank-Valter Ştaynmayerin ölkəmizə səfərini məmnunluqla xatırlayıb. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rola toxunan Prezident İlham Əliyev ölkəmizin artıq Almaniya və Avstriyaya da qaz ixrac etdiyini deyib. Söhbət zamanı Azərbaycan ilə Almaniya arasında münasibətlərin dostluq xarakteri daşıdığı qeyd edilib, iqtisadi və biznes əlaqələrinin inkişafı üçün geniş imkanların olduğu bildirilib, dövlətimizin başçısının Almaniyaya bu səfərinin ikitərəfli əməkdaşlığın inkişafına ciddi təkan verəcəyinə əminlik ifadə olunub. Bu səfər zamanı Azərbaycan-Almaniya əlaqələrinin strateji mahiyyət kəsb etməsi ilə əlaqədar Prezident İlham Əliyev və Kansler Fridrix Mertsin imzalayacağı "Azərbaycan Respublikası və Almaniya Federativ



Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə"nin əhəmiyyəti vurğulanıb. Görüşdə Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin Bakıya səfəri xatırlanıb, bu xüsusda Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişafı qeyd edilib. Söhbət zamanı Orta Dəhlizin əhəmiyyəti və bu dəhlizdə Azərbaycanın önəmli roluna toxunuldu, Yaxın Şərqdə yaranmış vəziyyət barədə fikir mübadiləsi aparılıb.

### "BİZ ARTIQ STRATEJİ DİALOQUN BAŞLANMASINI ARZULAYIRDIQ VƏ BUNA NAİL OLMUŞUQ"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Almaniya Federativ Respublikasının Federal Kansleri Fridrix Merts "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə"ni imzalayıblar. Bu sənəd Azərbaycan-Almaniya münasibətlərində keyfiyyətcə yeni mərhələnin əsasını qoyur. Bəyannamə iki ölkə arasında əməkdaşlığı ayrı-ayrı sahələr üzrə münasibətlərdən çıxararaq vahid strateji çərçivəyə salır və siyasi dialoq, iqtisadiyyat, enerji, təhlükəsizlik, elm, texnologiya, təhsil və humanitar əməkdaşlıq istiqamətlərini uzunmüddətli inkişaf konsepsiyası ətrafında birləşdirir. Birgə Bəyannamədə ilk dəfə olaraq təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlıq ayrıca strateji istiqamət kimi öz əksini tapır. Müdafiə sənayesi, hərbi təhsil müəssisələri arasında əməkdaşlıq, ekspert və tələbə mübadiləsi, mina təmizlənməsi, kibertəhlükəsizlik və transmilli təhdidlərə qarşı birgə fəaliyyət münasibətlərin daha geniş təhlükəsizlik müstəvisinə keçdiyini göstərir. Almaniyanın Azərbaycan-Ermənistan normallaşma prosesinə və regionda davamlı sülhün təmin olunmasına dəstəyi də bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Almaniya İtaliyadan sonra Azərbaycanın Qərbi Avropanın böyük dövlətləri ilə strateji çərçivə sənədi imzaladığı ikinci ölkədir. Bu, Azərbaycanın Avropanın aparıcı siyasi və iqtisadi gücləri ilə münasibətlərinin dərinləşməsinin ardıcıl xarakter aldığını nümayiş etdirir. Tədbirdə, həmçinin Azərbaycan-Almaniya Biznes Şurasının yaradılmasına və fəaliyyətinə dair Birgə Bəyannamə imzalanıb. "Əminəm ki, bu gün imzalanmış sənədlər bizim əlaqələrimizi yeni səviyyəyə qaldıracaq". Bu sözləri Prezident İlham Əliyev Almaniyanın Federal Kansleri Fridrix Merts ilə mətbuat konfransında söyləyib. Dövlətimizin başçısı deyib: "Biz artıq strateji dialoqun başlanmasını arzulayırdıq və buna nail olmuşuq".

### "AZƏRBAYCAN ÖZ NEFTİNİ DƏ ALMANİYAYA İXRAC EDİR VƏ GƏLƏCƏKDƏ YAŞIL ENERJİSİNİ DƏ AVROPA MƏKANINA ÇATDIRMAQ ƏZMİNDƏDİR"

Prezident İlham Əliyev Almaniyanın Federal Kansleri Fridrix Merts ilə mətbuat konfransında Avropa İttifaqı ilə əlaqələrə toxunub. Dövlətimizin başçısı bununla bağlı deyib: "Bu il biz həm Avropa İttifaqı Şurasının Prezidenti cənab Koştanın, həm Avropa Komissiyasının Prezidenti xanım Fon der Lyayenin Azərbaycana səfərlərinin şahidi olmuşuq. Bu səfərlərin çox böyük siyasi mənası var. Bu, Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələri daha da gücləndirəcək".

Avropa İttifaqının ən böyük iqtisadiyyatı və sənaye lokomotivi olan Almaniya üçün enerji mənbələrinin şaxələndirilməsi, təchizat zəncirlərinin dayanıqlığı və Mərkəzi Asiya bazarlarına çıxış strateji prioritetlər sırasındadır. Bu baxımdan Azərbaycan Berlin üçün yalnız enerji tərəfdaşı deyil, həm də Avropa ilə Asiya arasında formalaşan yeni geoiqtisadi bağlantıların əsas halqalarından biridir.

Azərbaycan qazının Almaniya bazarına daxil olması Bakı-Berlin münasibətlərində keyfiyyətcə yeni mərhələ yaradıb. "Bağlantılarla və tranzit imkanları ilə bağlı da Almaniya–Azərbaycan əməkdaşlığının çox böyük əhəmiyyəti var, çünki Almaniyanın şirkətləri bu istiqamətdə çox böyük uğurlar əldə ediblər". Bu sözləri Prezident İlham Əliyev Almaniyanın Federal Kansleri Fridrix Merts ilə mətbuat konfransında söyləyib. Dövlətimizin başçısı deyib ki, Azərbaycan öz nəqliyyat infrastrukturunu təkmilləşdirir və keçən il Mərkəzi Asiya məşvərət formatına tamhüquqlu üzv olmaqla bir növ Mərkəzi Asiya ilə Avropa arasında körpü rolunu oynayır və bu rol getdikcə artacaqdır".

Azərbaycanın Avropa üçün strateji əhəmiyyəti təkcə enerji ilə məhdudlaşmır. Müasir geosiyasətdə boru kəmərləri qədər nəqliyyat dəhlizləri, limanlar, dəmir yolları və rəqəmsal kommunikasiya xətləri də dövlətlərin geoiqtisadi gücünü müəyyən edən əsas amillərə çevrilib. "Bu gün bizim qazımız Avropa İttifaqına üzv 10 ölkəyə çatdırılır və şübhəsiz bu, enerji təhlükəsizliyi üçün çox böyük töhfədir". Bu sözləri Prezident İlham Əliyev Almaniyanın Federal Kansleri Fridrix Merts ilə mətbuat konfransında deyib. "Nəzərə alsaq ki, Azərbaycan öz neftini də Almaniyaya ixrac edir və gələcəkdə yaşıl enerjisini də Avropa məkanına çatdırmaq əzmindədir, enerji sahəsində əməkdaşlıq çox genişmiqyaslı olacaqdır", - deyə dövlətimizin başçısı vurğulayıb. Prezidentin Almaniyaya səfəri təkcə iki ölkə arasında növbəti diplomatik təmas deyil, dəyişən qlobal geosiyasi reallıqlar kontekstində Avropanın və xüsusilə onun iqtisadi lokomotivi olan Almaniyanın Cənubi Qafqaza baxışındakı köklü transformasiyanın əyani təzahürüdür.

***Nəzakət ƏLƏDDİNQIZI***

# YAP Sədrinin müavini Tahir Budaqov Çin Kommunist Partiyasının nümayəndə heyəti ilə görüşüb



















***İyulun 23-də Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ölkəmizə səfərin yekunları ilə bağlı Çin Kommunist Partiyası (ÇKP) Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin İnformatika və tədqiqatlar departamenti direktorunun müavini Kanq Şuayın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Qonaqları salamlayan Tahir Budaqov tarixi ənənələrə, qarşılıqlı etimada və möhkəm dostluğa əsaslanan Azərbaycan-Çin münasibətlərinin müasir beynəlxalq münasibətlər sisteminin mühüm reallığı kimi nümunəvi xarakter daşıdığını və geniş perspektivlərə malik olduğunu bildirib.***

O, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin dövlətlərarası münasibətlərin inkişafını daim diqqət mərkəzində saxladıqlarını vurğulayıb.

YAP Sədrinin müavini qeyd edib ki, Prezident İlham Əliyevin 2025-ci ilin aprel ayında Çinə rəsmi dövlət səfəri çərçivəsində imzalanmış "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"dan irəli gələrək iqtisadi-ticari, nəqliyyat-logistika, turizm, yaşıl enerji, rəqəmsal texnologiyalar və digər sahələrdə çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi qarşılıqlı maraqların təmini və münasibətlərin gələcək inkişafı baxımından böyük əhəmiyyətə malikdir.

Azərbaycanın Cənubi Qafqazda həyata keçirdiyi sülh quruculuğundan bəhs edən Tahir Budaqov hər iki ölkənin mühüm qlobal təşəbbüslərlə çıxış etdiyini vurğulayaraq "Bir kəmər, bir yol" layihəsinin və Zəngəzur dəhlizinin geostrateji əhəmiyyətini diqqətə çatdırıb.

O, beynəlxalq hüququn təməlində dayanan ərazi bütövlüyü və suverenlik prinsiplərini əsas götürən Azərbaycanın Vahid Çin siyasətinə qətiyyətli dəstəyini nəzərə çatdırıb.

YAP Sədrinin müavini nümayəndə heyətlərinin mütəmadi səfərlərinin ölkələr və siyasi partiyalar arasında münasibətlərin inkişafı baxımından xüsusi önəm daşıdığını qeyd edib. O, 2024-cü ilin noyabr ayında Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında imzalanmış Əməkdaşlıq Memorandumundan irəli gələn vəzifələrin indiyədək müvəffəqiyyətlə yerinə yetirildiyini vurğulayıb.

Tahir Budaqov gənclərin ictimai-siyasi həyatda, eləcə də dövlət idarəçiliyində və partiya fəaliyyətində aktiv iştirakının önəminə toxunaraq bu sahədə səmərəli əməkdaşlığın davam etdirilməsinin vacibliyini bildirib. O, partiya diplomatiyasının bundan sonra da ortaq hədəflərin gerçəkləşdirilməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

ÇKP Mərkəzi Komitəsinin Beynəlxalq Əlaqələr Şöbəsinin İnformatika və Tədqiqatlar Departamenti direktorunun müavini Kanq Şuay rəhbərlik etdiyi nümayəndə heyəti adından səmimi qəbula və yüksək qonaqpərvərliyə görə minnətdarlığını ifadə edərək səfərin onlarda dərin təəssürat yaratdığını söyləyib.

O, iki ölkənin liderləri tərəfindən həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan-Çin münasibətlərinin bütün sahələrdə yüksələn xətt üzrə inkişafının məmnunluq doğurduğunu qeyd edib. Kanq Şuay Çin Xalq Respublikasının dost və tərəfdaş Azərbaycanın ədalətli mövqeyini, o cümlədən ərazi bütövlüyünü və suverenliyini birmənalı şəkildə dəstəklədiyini vurğulayıb.

Hakim partiyalar arasında işbirliyinin əhəmiyyətindən bəhs edən Kanq Şuay ÇKP nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində keçirilən məhsuldar görüşlərin ölkələr və partiyalar arasında əməkdaşlığın dərinləşdirilməsinə və tərəfdaşlıq münasibətlərinin inkişafına təkan verəcəyini bildirib. Daha sonra nümayəndə heyətinin üzvləri Azərbaycan-Çin hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin mühüm tərkib hissəsi olan YAP-ÇKP əməkdaşlığının hazırkı durumu və gələcək hədəflərlə bağlı fikirlərini bildiriblər.

Görüşdə yüksəksəviyyəli siyasi dialoq şəraitində nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin davam etdirilməsinin və ümumi maraq doğuran məsələlər üzrə təmasların daha da gücləndirilməsinin vacibliyi vurğulanıb.

Qeyd edək ki, nümayəndə heyətinin İçərişəhərə, Dənizkənarı Milli Parka, "Sea Breeze" istirahət mərkəzinə, Mərkəzi Nəbatət Bağına, Bakı Gənclər Mərkəzinə, "Atəşgah Məbədi" Dövlət Tarix-Memarlıq Qoruğuna, Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinə, Azərbaycan Milli Xalça Muzeyinə, Dövlət Bayrağı Muzeyinə və Heydər Əliyev Mərkəzinə ziyarətləri də təşkil olunub. ÇKP nümayəndələri, həmçinin Azərbaycan Dövlət Akademik Musiqili Teatrının "Operetta inciləri" konsert proqramını izləyiblər və Yeni Azərbaycan Partiyasının nümayəndələri ilə birlikdə ağacəkmə aksiyasında iştirak ediblər.

# Milli Məclisin sədri Sahibə Qafarova Çin Kommunist Partiyasının nümayəndə heyəti ilə görüşüb



***İyulun 21-də Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin İnformatika və tədqiqatlar departamentinin direktor müavini Kanq Şuayın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə Azərbaycan–Çin münasibətlərinin dinamik inkişafı və əldə olunmuş nailiyyətlər məmnunluqla qeyd edilib, parlamentlərarası və partiyalararası əməkdaşlığın daha da möhkəmləndirilməsi, iqtisadi, ticarət, təhsil, mədəniyyət, humanitar, o cümlədən gənclər sahəsində əlaqələrin genişləndirilməsi məsələləri müzakirə olunub.***

Çin Kommunist Partiyasının (ÇKP) nümayəndə heyətini salamlayan spiker Sahibə Qafarova vurğulayıb ki, Azərbaycan ilə Çin arasında son illərdə bütün istiqamətlər üzrə dinamik inkişaf edən əməkdaşlığın əsasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri cənab Si Cinpin arasındakı dostluq münasibətləri dayanır. Bildirilib ki, Azərbaycan hər zaman birmənalı olaraq "Vahid Çin" siyasətini və Çinin ərazi bütövlüyünü dəstəkləyib. Biz də Çinin ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə dəstəyini yüksək qiymətləndiririk.

Milli Məclisin sədri Prezident İlham Əliyevin 2025-ci ildə Çin Xalq Respublikasına həyata keçirdiyi səfərlərinin, xüsusən dövlət səfəri zamanı Azərbaycan ilə Çin arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanatın imzalanmasının ikitərəfli münasibətlərin inkişafında mühüm mərhələ olduğunu qeyd edib. Sahibə Qafarova parlamentlərarası əlaqələrin Azərbaycan–Çin münasibətlərinin mühüm tərkib hissəsi olduğunu deyib. O, cari il Çinə işgüzar səfəri çərçivəsində Ümumçin Xalq Nümayəndələri Yığıncağının Daimi Komitəsinin sədri Cao Lıci ilə keçirdiyi görüşdən söz açaraq, parlamentlərarası dialoqun, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın uğurla davam etdiyini söyləyib.

Milli Məclisin sədri Azərbaycan ilə Çin arasında qarşılıqlı etimada əsaslanan yüksəksəviyyəli siyasi dialoqla yanaşı, partiyalararası əməkdaşlığın da uğurla inkişaf etdiyini bildirib. O, Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında formalaşmış səmərəli əlaqələrin və imzalanmış Anlaşma Memorandumunun bu əməkdaşlığın daha da genişlənməsinə mühüm töhfə verdiyini vurğulayıb.

ÇKP Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin İnformatika və tədqiqatlar departamentinin direktor müavini Kanq Şuay Çin ilə Azərbaycan arasında münasibətlərin son illərdə uğurla inkişaf etdiyini, iki ölkə rəhbərləri arasında formalaşmış yüksək səviyyəli münasibətlərin bu əməkdaşlığın möhkəmlənməsində mühüm rol oynadığını qeyd edib.

Kanq Şuay Milli Məclisin sədri Sahibə Qafarovanın Çin Xalq Respublikasına səfərini və keçirdiyi görüşləri məmnunluqla xatırlayaraq, onun Azərbaycan ilə Çin arasında, o cümlədən partiyalararası dialoqun inkişafına verdiyi dəstəyi yüksək qiymətləndirib.

Görüşdə Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov dövlətlərarası münasibətlər sistemində siyasi dialoqun, parlamentlərarası əməkdaşlığın əhəmiyyətindən danışaraq, Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əməkdaşlığın inkişaf perspektivləri barədə fikirlərini açıqlayıb. Çinin Azərbaycandakı səfiri Lu Mey Azərbaycanla Çin arasındakı münasibətlərin müxtəlif aspektləri barədə fikirlərini bölüşüb. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Dünya 15 yaşa qədər uşaqlar üçün sosial şəbəkələri qadağan edir - biz kimi gözləyirik?

"Son bir ay ərzində dünyanın aparıcı dövlətləri tərəfindən uşaq və yeniyetmələrin sosial şəbəkələrə girişini qadağan edən qanunların qəbulu, əslində, bizim üçün də xəbərdarlıq siqnalıdır. Çünki demokratik və aparıcı texnologiya sahibi olan inkişaf etmiş ölkələr öz milli təhlükəsizlikləri üçün bu addımı atırlarsa, o zaman bizim oturub gözləməyimiz ancaq ziyanımıza işləyəcək məqamdır. Unutmayaq ki, hazırkı uşaq və yeniyetmələr sabahkı Azərbaycan deməkdir, Azərbaycanı idarə edəcək nəsil deməkdir. Məncə, biz ciddi təhlükənin fərqində olmalıyıq."

Bu fikirləri SİA-ya açıqlamasında araşdırmaçı jurnalist Mətləb Salahov bildirib. O qeyd edib ki, ölkəmizdə 16 yaşa qədər yeniyetmələrin internetə girişi barədə qanunvericilik təşəbbüsü eləcə təşəbbüs olaraq da qalır. "Diqqət edin, artıq sosial şəbəkələrdə, xüsusilə TikTok platformasında rəzalət dolu özbaşınalıq hökm sürür. Qız və oğlan uşaqlarını xoşagəlməz istiqamətə yönləndirmək üçün ləçər küçə qadınlarını və cinsi azlıqları geninə-boyuna reklam edirlər. Üstəlik, cinayətkar ünsürlər də reklam olunanlar siyahısındadır. Bu bilirsiniz nə deməkdir? "Potensial cinayətkar nəsil qapını döyür" deməkdir. Xoşagəlməz ad çıxarmış bir qadının həbsdən zaminə buraxılması səhnəsi, onu coşqu ilə qarşılayan başıpozuq bir dəstə insanın çıxardığı rəzalət dolu biabırçılıq dediklərimə əyani sübutdur. Gerçəklik budur ki, TikTok platforması bu gün Azərbaycan xalqı üçün ən böyük təhlükəyə çevrilib. Geciksək çox şey itirəcəyik".



*Mətləb Salahov: Sosial şəbəkələrdə potensial cinayətkar nəsil "qapını döyür"*

***Afət Tahirqızı***

# Zərdabi ömründən dəqiqələr



**Vəli Vəliyev**

***"Əkinçi"dən başlayan milli mətbuatımızın 151 yaşı tamam oldu. Bir əsr yarımlıq mətbuat tariximizin Həsən bəy Zərdabidən başlamadığını, bundan əvvəl kimlərinsə bünövrə qoyması ehtimalını irəli sürənlər, onu isbat etməyə çalışanlar olsa da, hələlik buna müyəssər olanlar yoxdur. Amma mövzumuz o deyil və buna cəhd də etməyəcəyik. Əsas odur ki, bu günün mətbuat reallığındayıq, bu peşəyə necə sadiqik, öz işimizin öhdəsindən necə gəlirik, çətinliklərə dözə bilirikmi? Bu suala doğru cavab vermək, olub-keçənləri analiz etmək isə əsl qəhrəmanlıqdır.***

Şox təəssüf ki, müasir müstəqil mətbuatımızın sovet təsirindən qopması təlatümlü dövrə, müharibəyə, erməni işğalı ilə eyni vaxta təsadüf etdi, amma bu, mətbuatın inkişafını ləngidən, yaxud ona mane olan səbəb kimi də qəbul edilməməlidir. Əksinə, baş verən hadisələr yeni jurnalist nəslinin yetişməsinə böyük təkan verməli idi. Yaxın 35 illik tariximiz belə faktlarla doludur.

Bəs milli mətbuatımızın banisi Həsənbəy Məlikov Zərdabinin qəzetçilik həyatı rəvan olmuşdumu? Hansı çətinliklərlə üzləşmişdi, dəfələrlə ölümlə baş-başa qalmışdı, şərlənmişdi, Çar Rusiyasının və sonra sovet rejiminin repressiya maşını onu daim izləmişdi.

...Çar jandarm idarəsi Zərdabi üzərində nəzarət təyin edir. Bir gün klubda jandarm rəisi Həsənbəylə görüşür və bütün gecəni onunla bilyard oynayır. Ertəsi gün Həsənbəyi jandarm idarəsinə çağırırlar. Jandarm rəisi ona sual verir:

- Dünən siz klubda kimlərlə görüşmüş, nə barədə danışıq aparmısınız? Bizə xəbər veriblər, heç nəyi gizlətməyin.

Həsənbəy təəccüblə:

- Cənab rəis, dünən kluba gələndən çıxıb gedənədək mən ancaq sizinlə bilyard oynamışam. Siz ki bunu yaxşı bilirsiniz.

Rəis yuxudan ayılmış kimi Həsənbəyə diqqətlə baxır:

- Bəli, bəli, yadıma düşdü, siz mənim oyun yoldaşımsınız, cənab Məlikov. Amma, gərək bağışlayasınız, vəzifəmdir, qanun belə tələb edir. Azadsınız, gedə bilərsiniz.

* * *

Jandarm idarəsinə Zərdabi haqda yazılan böhtançı kağızlar günü-gündən artırdı. Jandarm idarəsi onun evinə xüsusi xəfiyyə təyin etmişdi. Xəfiyyə gənc və təcrübəsiz idi. Həsənbəyin həyat yoldaşı Hənifə xanım eyni adamın bir neçə gündən bəri onların pəncərəsinə göz zillədiyini ərinə xəbər verdikdə arvadını sakitləşdirmək üçün zarafata keçmişdir:

- Mətləb aydındır, nədən qorxursan, xəyalpərəst cavanlardandır. Bir neçə gün pəncərənin qabağında gəzib, səni görməyəndən sonra rədd olub gedəcək.

Hənifə xanım gülümsəmiş və:

- Xeyr, əzizim, mənə elə gəlir ki, o mənim yox, sənin intizarını çəkir.

* * *

Zərdabini Peterburqa "Zemledelçeskaya qazeta"da işləməyə dəvət etdikdə o, Vətənindən ayrılmaq istəməyib demişdir:

- Məqalələrim yaxşıdır, çünki bunları azad adam yazır, dövlət qulluğuna getsəm dilim bağlanar.

* * *

Zərdabi kənddə yaşadığı vaxt "Tərcüman" qəzetini müntəzəm alırdı. O, bu qəzeti sevir, "Əkinçi"nin yetişdirməsi hesab edirdi. Həsənbəy bir dəfə "Tərcüman" qəzetini mollaya vermiş və söyləmişdir:

- Al bu qəzeti minbərdə oxu, burada yazılanlar sənin nağıllarından daha faydalıdır.

* * *

Həsənbəy "Kaspi" qəzeti redaksiyasında işləyəndə Üzeyir Hacıbəylinin musiqiyə olan böyük həvəsini görüb demişdir:

- Oğlum, sən elə bir teatr yaz ki, iştirak edənlər oxusunlar.

Birinci Azərbaycan operasına qulaq asmağı bərk arzulayan Zərdabi əfsuslar olsun ki, onu görmədi. Onun ölümündən azca sonra "Leyli və Məcnun" operası tamaşaya qoyuldu. Belə, Həsənbəy Məlikov Zərdabinin ömrünə bəzək olan bir neçə dəqiqəni diqqətinizə çatdırdıq. Hələlik bu qədər.

***Almaniya yenidən Aİ-nin hegemonuna çevrilir - bu dəfə təkcə iqtisadi deyil, həm də hərbi cəhətdən. Ukraynaya yardıma və yeni hava və raketdən müdafiə sistemlərinin qurulmasına daha çox pul xərcləyir. Əvvəlcə fransızlar arxayınlaşdılar, amma sonra ciddi bir rəqiblərinin olduğunu başa düşdülər. Alman hegemonluğu ilə bağlı qorxular Fransada heç vaxt tamamilə yox olmadı. İndi yenidən artır. Makron və Merz, mümkün bir ssenarini nəzərə almaqla da daxil olmaqla, köhnəlmiş münasibətlərini gücləndirmək niyyətindədirlər.***



# Fransanın köhnə qorxusu

## *Fransa Aİ-nin əsas geosiyasi gücü niyə ola bilmir?*

Futbolun Almaniyanın həmişə qalib gəldiyi bir oyun olması ifadəsi Fransada uzun müddətdir ki, idman fenomeni haqqında sadəcə bir hazırcavab qeyddən daha çox şey kimi qəbul edilirdi. Bu, Fransanın Almaniyaya qarşı aşağılıq kompleksinin mahiyyətini əks etdirirdi. "Les Bleus" ləqəbi ilə tanınan Fransa milli komandası dəfələrlə Almaniyaya məğlub olub. "Sevilya gecəsi" xüsusilə fransızların yaddaşında həkk olunub. 1982-ci ildə Fransa Dünya Kubokunun yarımfinalında Qərbi Almaniya ilə qarşılaşdı. Fransızlar böyük üstünlüyə baxmayaraq, sonda penaltilərdə məğlub oldular. Həmin matçda Toni Şumaxer fransız Patrik Battistonu yıxdı və onu ciddi zədə ilə meydanda uzanmış vəziyyətdə qoydu. Alman qapıçısı o qədər qəddar və soyuqqanlı davrandı ki, müharibənin dəhşətli xatirələri Fransa cəmiyyətində canlandı. Alçaq almanın obrazı yenidən doğuldu. Nəhəng idman qəzeti L'Yquipe başlığı ilə belə bir məqalə dərc etdi: "Toni Şumaxer. Peşə: Qeyri-insani".

Fransanın həmişə şərqə Almaniyanın qərbə baxmasından daha yaxından baxdığını anlamaq vacibdir. Qonşusunun iqtisadi üstünlüyü Reynin sol sahilində daim müzakirə olunurdu. Onun iqtisadi gücü Avropada siyasi dominantlıqla eyniləşdirilirdi. Bu münasibət uzun müddət həm Fransanın Almaniyaya baxışını, həm də Fransanın özünə baxışını formalaşdırdı. Minilliyin əvvəlində Almaniyanın yeni iqtisadi supergüc kimi ortaya çıxması fransızları xüsusilə oxşar nəticələr əldə edə bilməmələrindən xəbərdar etdi. Almaniya tezliklə sinifdəki ən yaxşı şagirdə qarşı hiss edə biləcəyi eyni düşmənçiliyi oyada bildi. Fransızlar əziyyət çəkirdilər, çünki qonşuları həmişə onlardan daha uğurlu görünürdülər.

### Barışmaz fərqlər

Fransa siyasətinin son uclarında Almaniyaya hücum uzun müddət yaxşı forma hesab olunurdu. "Sus, Merkel" sətirləri hələ də xatırlanan solçu populist Jan-Lük Melenşon "Bismarkın siyənəyi" kitabında Almaniyanı sərt tənqid etmişdi. Almaniyanın dövr dəyişikliyini elan etməsindən bir neçə il əvvəl o, artıq Berlindən gələn yeni bir "genişlənmə ruhu"ndan danışırdı. Milli Yürüş partiyasından sağçı populist Marin Le Pen 2022-ci il prezidentlik kampaniyasına açıq-aşkar Almaniya əleyhinə platforma ilə qatıldı. İstər dronlar, istər kosmik, istərsə də birgə hərbi sistemlər olsun, Berlin həmişə eyni strategiyaya sadiqdir: "Əvvəlcə sadəcə iştirak edin, sonra üstünlük əldə edin və nəhayət, atəş açmağa başlayın". Bu baxışda Almaniya əbədi bir diktator, bir növ siyasi dominant kimi qəbul edilir. Cümə günü Brühldə keçirilən Fransa-Almaniya Nazirlər Şurasının iclası bu problemləri gizlədə bilmədi. İndi diqqət sadəcə yaxın gələcəyə nəzər salmaqla yanaşı, xilas edilə bilən hər şeyi xilas etməyə yönəlib. Əvvəlki axşam, Prezident Emmanuel Makron və Kansler Fridrix Merz arasında Grand Hotel du Schloss Bensberg-də keçirilən birgə şam yeməyi zamanı əsas mövzu gələn il Fransada keçiriləcək prezident seçkiləri idi. Zərif restoranın bağlı qapılar arxasında müzakirə Fransa-Almaniya münasibətlərini "Le Penin ələ keçirilməsinə qarşı davamlı" etmək barədə idi. Welt am Sonntag qəzetinin tərəfdaşı olan Politico, bir gün əvvəl vəzifəni belə formalaşdırdı. "Milli Ralli" lideri Jordan Bardella Avropa Birliyinin vəsaitlərini mənimsəməkdə ittiham olunan Le Penin yerinə mümkün namizəd hesab edilsə də, sağçı populistlərin qələbəsi, ən azından xarici siyasət baxımından məqbul görünürdü. Bardella Berlinə aydın siqnallar göndərdi. O, Merz ilə "ortaq nöqteyi-nəzər"i vurğuladı və müdafiə sektorunda sənaye əməkdaşlığını müdafiə etdi. Lakin Le Penin namizəd kimi qayıtması ilə ritorika yenidən sərtləşdi. O, birgə nüvə çəkindirmə təlimlərini və Fransanın strateji hərbi planlaşdırmasında digər ölkələrin iştirakını rədd edir. Üstəlik, Le Penin Fransanın nüvə çətirini heç kimlə bölüşmək niyyəti yoxdur. Onun proqramı "Fransa Birinci" adlandırıla bilər.

### Avropanın növbəti hegemonu

Le Penin seçki qələbəsinin əvvəlcədən gözlənilən nəticədən çox uzaq olması yalnız soyuq təsəllivericidir. Yelisey Sarayında Makronun yerinə kim gəlsə də, potensial namizədlər arasında Almaniyanı o qədər də dəstəkləyən görünmür. 2027-ci ildə yeni Fransa prezidentinin, 2017-ci ildəki qələbəsindən sonra Makron kimi, Almaniya üzrə mütəxəssisləri və ölkə ilə yaxınlaşma tərəfdarlarını əsas vəzifələrə və nazir vəzifələrinə təyin etməsi mümkündür. Makronun əsas layihəsi olan Avropanın strateji müstəqilliyi üçün perspektivlər də əvvəlkindən daha pis görünür. Almaniya heç vaxt onu tam dəstəkləməyib. Növbəti Fransa lideri Berlinlə daha az əməkdaşlıq etməyə çalışa bilər, nəinki onun təsirini məhdudlaşdırmağa. Politoloq Liana Fiks "Foreign Affairs" jurnalında yazdığı məqalədə Almaniyanın "Avropanın növbəti hegemonu"na çevrilmə ehtimalı yenidən Fransa siyasi dairələrində müzakirə olunur.

Makronun rəhbərliyi altında iki prezidentlik müddətindən sonra fransızlar Almaniyanın çox irəlilədiyini hiss edirlər. Ukraynadakı münaqişənin başlamasından bəri Almaniyanın təhlükəsizlik siyasətindəki dönüş və Berlinin silahlara böyük investisiyaları köhnə, uzun müddət basdırılmış qorxuları yenidən oyadır. "Almanlar müdafiəyə Fransadan ildə üç dəfə çox pul xərcləməyi planlaşdırırlar. Beş ildən sonra fərq gözə çarpacaq", - deyə Fransa Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general Fabien Mandon Senat dinləmələrində xəbərdarlıq edib.

Hazırda Fransa-Almaniya münasibətlərində yaxşı xəbərlər azdır. Bu isti yay günlərində Fransa heç olmasa futbolda Almaniyaya qarşı aşağılıq kompleksi ilə üzləşməməli olduğuna görə təsəlli tapa bilər. Lakin heç bir "yumşaq güc" idmanı Avropada təsirin yenidən bölüşdürülməsinin sərt reallığını heç kimə unutdurmaq üçün kifayət etməyəcək.

**V.VƏLİLİ**

***P.S.** Məqalədə xarici mətbuatdan istifadə olunub.*

# Azərbaycan-Almaniya əlaqələri yüksələn xətlə inkişaf edir



*İman ABDUYEV,*
*politoloq*

Azərbaycan Prezidenti İlham Əliyevin iyulun 20-də Almaniyaya səfəri iki ölkə arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə xidmət edən mühüm siyasi hadisədir. Bu səfər təkcə ikitərəfli diplomatik hadisə deyil, həm də regionda və Avropada formalaşan yeni siyasi-iqtisadi düzənin göstəricisi kimi qiymətləndirilə bilər. Federal Kansler Fridrix Mertsin dəvəti ilə baş tutan bu səfər Prezident İlham Əliyevə göstərilən yüksək etimadın, ölkəmizə etibarlı tərəfdaş kimi verilən dəyərin göstəricisidir. Bu səfər eyni zamanda Bakı və Berlin arasında yüksək səviyyəli dialoqun intensivliyini bir daha təsdiqləyir. Azərbaycanın ərazisinin işğalına son qoyması ilə ərazi bütövlüyü və suverenliyinin bərpasından sonra regionda yaranmış yeni siyasi reallıqlar həm ikitərəfli münasibətlər, həm Avropa İttifaqı ilə münasibətlər kontekstində, eləcə də Almaniya və Avropa İttifaqının Mərkəzi Asiya ilə intensivləşən iqtisadi ticarət əlaqələri prizmasından əməkdaşlıq və tərəfdaşlıq üçün unikal imkanlar yaradıb.

Qeyd edək ki, Bakı artıq Avropada yalnız enerji təchizatçısı kimi deyil, həm də sabitlik, nəqliyyat bağlantıları və regional balans baxımından əhəmiyyətli tərəfdaş kimi qəbul olunur. Ona görə də bu səfəri yeni reallıq ifadəsi ilə xarakterizə etməyimiz heç də təsadüfi deyil. Almaniya kimi yüksək sənaye gücü olan bir dövlət üçün etibarlı enerji mənbələri, sabit tərəfdaşlar və uzunmüddətli iqtisadi əlaqələr xüsusi əhəmiyyət daşıyır. Azərbaycan isə bu kontekstdə həm enerji resursları, həm də Şərqlə Qərbi birləşdirən coğrafi mövqeyi ilə diqqət mərkəzinə çıxır.Həmçinin iqtisadi baxımdan da bu səfərin perspektiv imkanları və potensialı böyükdür. Almaniya texnologiya, sənaye avadanlıqları, innovasiya və investisiya baxımından Azərbaycanın ən vacib tərəfdaşlarından biri ola bilər. Azərbaycan isə Almaniya üçün yalnız enerji bazarı deyil, həm də Cənubi Qafqaz və Mərkəzi Asiya istiqamətində çıxış qapısı rolunu oynaya bilər. Bu baxımdan, səfər yeni biznes əlaqələri, sənaye əməkdaşlığı, logistika layihələri və texnoloji tərəfdaşlıq üçün yeni imkanlar açır. Bir sözlə bu səfər Azərbaycan-Almaniya münasibətlərində pragmatik və uzunmüddətli əməkdaşlıq mərhələsini gücləndirə bilər. Almaniya ilə münasibətlər Azərbaycanın bütövlükdə Avropa İttifaqı ilə siyasi dialoqunun dərinləşməsi baxımından da önəmlidir. Yerigəlmişkən, Berlinin Bakıya yüksək səviyyədə diqqət göstərməsi, Azərbaycanın beynəlxalq arenada artan nüfuzunun göstəricisi kimi oxuna bilər. Bu, həm də onu göstərir ki, Azərbaycan regional proseslərdə passiv müşahidəçi deyil, öz mövqeyi və təsir imkanları olan aktordur. Bu kontekstdən yanaşsaq, bir daha qeyd edim ki, belə səfərlər diplomatik etimadı gücləndirir, qarşılıqlı anlaşmanı artırır və gələcək əməkdaşlıq üçün institusional zəmin yaradır. Gələcək perspektivlərə gəldikdə isə, bu səfərin Azərbaycan-Almaniya münasibətlərini daha sistemli və çoxşaxəli mərhələyə daşıması gözlənilir. Əminliklə söyləmək olar ki, bu səfər bütün sahələr üzrə əməkdaşlığın daha yüksək səviyyəyə qaldırılmasında əhəmiyyətli rol oynayacaq, gələcək inkişaf üçün böyük perspektivlər açacaq.

Təsdiq edilmişdir:

“OMNİ” Qapalı Səhmdar Cəmiyyətinin Ümumi Yığıncağının
30 iyun 2026-cı il tarixli qərarı ilə

## “OMNİ” Qapalı Səhmdar Cəmiyyətinin

## 2025-ci il üzrə

## İllik İdarəetmə Hesabatı

“OMNİ” Qapalı Səhmdar Cəmiyyətinin

- Direktoru — Roman Alloyarov
- Baş mühasib vəzifəsini icra edən şəxs — Nihad Cabbarov

Bakı — 30 iyun 2026-cı il

“OMNİ” Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra “**Emitent**”) bu hesabatı Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin № 10q, 03 fevral 2016-cı il tarixdə qəbul etdiyi “Emitentin idarəetmə hesabatlarına dair tələblər haqqında” Qaydalarına uyğun tərtib edilmişdir.

1. Emitentin tam adı: “OMNİ” Qapalı Səhmdar Cəmiyyəti;
   Emitentin qısaldılmış adı: “OMNİ” QSC;
   Emitentin vergi ödəyicisinin eyniləşdirmə nömrəsi: 1700160671
   Emitentin dövlət qeydiyyatının tarixi və nömrəsi: 05.11.2003, 1700160671.

2. Emitentin hüquqi ünvanı: Bakı şəhəri, Səbail rayonu, Böyük Qala küçəsi 37;
   Emitentin olduğu yer: Bric Plaza, Bakı şəhəri, Bakıxanov küçəsi 24.

3. Emitentin dövlət qeydiyyatına alınması tarixindən sonra Emitentin adında və təşkilati-hüquqi formasında heç bir dəyişiklik olmamışdır. Emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaranmamışdır. Emitent hüquqi şəxslərin birləşməsi şəklində yenidən təşkil yolu ilə yaranmamışdır.



4. Emitentin 2025-ci il ərzində filial və nümayəndəlikləri yaradılmamış və ya ləğv edilməmişdir.

5. Emitentin 2025-ci il ərzində hər hansı törəmə cəmiyyəti yaradılmamış və ya ləğv edilməmişdir.

6. Emitent heç bir şirkətlər qrupuna daxil deyildir.

7. Emitent aşağıdakı fəaliyyət istiqamətləri ilə məşğul olur:

   7.1. Hüquq xidmətlərinin göstərilməsi.

8. Emitent lisenziya üzrə hər hansı bir fəaliyyətlə məşğul olmur.

9. Emitent tərəfindən təklif edilən xidmətlər aşağıdakılardan ibarətdir:

   9.1. Şirkətlərin təsis edilməsi və dövlət qeydiyyatına alınması;
   9.2. Mülki məhkəmə icraatında iddiaçı və ya cavabdehin maraqlarının müdafiəsi;
   9.3. Müxtəlif sahələr üzrə müqavilələrin tərtib olunması, bağlanması, icrası, müqaviləyə dəyişikliklər edilməsi və müqaviləyə xitam verilməsi ilə bağlı mübahisələrin tənzimlənməsi;
   9.4. Azərbaycan Respublikasının mülki, vergi, əmək, bank, rəqabət, anti-inhisar və digər qanunvericilik sahələrinə dair məsləhətlərin verilməsi.

10. Emitentin işçilərinin sayı 17 (on yeddi) nəfər olmuşdur. Hesabat dövrü ərzində işçilərin sayında mühüm dəyişiklik olmamışdır.

11. Emitentin idarəetmə orqanları aşağıdakılardan ibarətdir:

    11.1. Cəmiyyətin təkbaşçı direktoru: Alloyarov Roman Valentinoviç

12. Emitentin fiziki şəxs olan səhmdarlarının sayı dörddür. Emitentin hüquqi şəxs olan səhmdarı yoxdur.

13. Emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərə (paylara) malik olan şəxslər üzrə məlumatlar aşağıdakı cədvəldə göstərilib:

| Səhmdarın Soyadı, Adı və Atasının adı | Qiymətli Kağızların Növü | Səhmdara Məxsus Olan Qiymətli Kağızların Sayı | Səhmlərin Nizamnamə Kapitalında Faiz Nisbəti |
|---|---|---|---|
| Alloyarov Roman Valentinoviç | adi adlı sənədsiz səhm | 19 (on doqquz) | 19% (on doqquz faiz) |
| Bayramova Aygün Hüseyn qızı | adi adlı sənədsiz səhm | 30 (otuz) | 30% (otuz faiz) |
| Məmmədov Riad Eldəniz oğlu | adi adlı sənədsiz səhm | 10 (on) | 10% (on faiz) |
| Vəzirova Xatun Rzaquliyevna | adi adlı sənədsiz səhm | 41 (qırx bir) | 41% (qırx bir faiz) |



14. Emitentin səhmdarlarının 2025-ci il ərzində keçirilmiş yığıncaqları haqqında məlumat:

    14.1. 2025-ci il ərzində Emitentin səhmdarlarının iki ümumi yığıncağı keçirilmişdir:

    14.1.1. Emitentin səhmdarlarının birinci ümumi yığıncağı 15 may 2025-ci il tarixdə keçirilmişdir. Yığıncaqda dividendlərin ödənilməsi haqqında qərar qəbul edilmidir.
    14.1.2. Emitentin səhmdarlarının ikinci ümumi yığıncağı 20 iyun 2025-ci il tarixdə Bakı şəhəri, Bakıxanov küçəsi 24 ünvanında keçirilmişdir. Yığıncaqda Emitentin illik idarəetmə hesabatının, mühasibat balansının və mənfəət və zərər hesablarının təsdiqi haqqında qərar qəbul edilmişdir.

15. Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat:

    15.1. Emitentin adi adlı səhmi (bundan sonra “Səhmlər”) dövriyyədədir;

    15.2. Səhmlərin dövlət qeydiyyat nömrəsi və dövlət qeydiyyat tarixi: 1010500K, 21 noyabr 2003-cü il;

    15.3. Səhmlərin miqdarı və nominal dəyəri: 100 (yüz) ədəd, hər bir səhmin dəyəri 20 (iyirmi) manat;

    15.4. Səhmlərin məcmu nominal dəyəri: 2000 (iki min) manat;

    15.5. 2024-cü il ərzində Emitent tərəfindən Səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat: 2024-cü ildə 3,112,970.45 ABŞ dolları məbləğində dividend ödənilmişdir;

    15.6. Yuxarıda qeyd edilən Səhmlər istisna olmaqla, Emitent tərəfindən səhm və ya istiqraz emissiyası həyata keçirilməmişdir;

    15.7. Emitentin Səhmlərinin yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer haqqında məlumat: “Bakı Fond Birjası” QSC, Bakı, Xətai rayonu, Babək pr, Ə.Quliyev 11/31, Babək Plaza 9-cu və 10-cu mərtəbələr, AZ 1025.

16. Hesabat dövrü ərzində Emitent tərəfindən xüsusi əhəmiyyətli əqdlər bağlanmamışdır.

17. Hesabat dövrü ərzində Emitent tərəfindən aidiyyəti şəxslərlə əqdlər bağlanmamışdır.

18. Ümumi yığıncaq 2025-ci il üzrə illik hesabatı 30 iyun 2026-cı il tarixdə təsdiq etmişdir.

19. 2025-ci il üzrə illik hesabat “Səs” qəzetində dərc ediləcəkdir.



## “OMNİ” QSC
## Maliyyə vəziyyəti haqqında hesabat
## 31 dekabr 2025-ci il tarixinə

| Bölümün, maddən | Göstəricilər | Qeydlər | 2025 | 2024 |
|---|---|---|---|---|
| | **AKTİVLƏR** | | | |
| **1** | **Uzunmüddətliaktivlər** | | | |
| 11 | Torpaq, tikiliveavadanlıqlar | 7 | 55952569 | 698121,99 |
| | **Cəmi uzunmüddətli aktivlər** | | 559525,69 | 698121,99 |
| **2** | **Qısamüddətliaktivlər** | | | |
| 20 | Ehtiyatlar | | 0 | 0 |
| 21 | Qısamüddətlidebitorborcları | 8 | 4032074,26 | 6070816,83 |
| 22 | Pulvəsaitləriveonlarınekvivalentləri | 9 | 9534492,31 | 7250452,68 |
| 23 | Sairqısamüddətlimaliyyəaktivləri | | | 0 |
| 24 | Sairqısamüddətliaktivlər | 10 | 1448394,22 | 0 |
| | **Cəmi qısamüddətli aktivlər** | | 15014960,79 | 13321269,51 |
| | **Cəmi aktivlər** | | 15574486,48 | 14019391,5 |
| | **KAPİTALVƏÖHDƏLİKLƏR** | | | |
| **3** | **Kapital** | | | |
| 30 | Ödənilmişnominal (nizamnamə) kapital | 11 | 2000 | 2000 |
| 34 | Bölüşdürülməmişmənfəət(ödənilməmişzərər) | | 14022462,63 | 13967367,65 |
| | **Cəmi kapital** | | 14022462,63 | 13967367,65 |
| **4** | **Uzunmüddətliöhdəliklər** | | | |
| 40 | Uzunmüddətlifaizxərcləriyaradanöhdəliklər | | 0 | 0 |
| 42 | Təxirəsalınmışvergiöhdəlikləri | | 0 | 0 |
| 43 | Uzunmüddətlikreditorborcları | | 0 | 0 |
| 44 | Sairuzunmüddətliöhdəliklər | | 0 | 0 |
| | **Cəmi uzunmüddətli öhdəliklər** | | 0 | 0 |
| **5** | **Qısamüddətliöhdəliklər** | | | |
| 52 | Vergivəsairməcburiödənişlərüzrəöhdəliklər | 12 | 38060,79 | 38060,79 |
| 53 | Qısamüddətlikreditorborcları | 13 | 0 | 0 |
| 54 | Alınmış avanslar | | 1500000 | 0 |
| 55 | Sairqısamüddətliöhdəliklər | 14 | 11963,06 | 11963,06 |
| | **Cəmiqısamüddətliöhdəliklər** | | 1550023,85 | 50023,85 |
| | **Cəmiöhdəliklər** | | 1550023,85 | 50023,85 |
| | **Cəmikapitalvəöhdəliklər** | | 15574486,48 | 14019391,5 |

Maliyyə hesabatlarını imzalayan və buraxılmasına icazə verənlər:

Direktor: Roman Alloyarov

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “ekologiya və ətraf mühitin mühafizəsi” istiqaməti çərçivəsində hazırlanıb.*

# İqlim dəyişikliyi Avropanı qurudur: insanlar ölür, böhran böyüyür



*Elmi təhlillər göstərir ki, həddindən artıq isti hava yayda Avropanı qurudur və qitədə quraqlığı daha da gücləndirir. Təhlillər göstərir ki, isti dalğalar atmosferi daha da susuzlaşdırır, su təchizatına, qida istehsalına və enerji istehsalına zərər verir. Rekord dərəcəli isti dalğalar isti atmosferin çaylardan, göllərdən, torpaqlardan və bitkilərdən suyu güclü şəkildə buxarlandırdığı anlamına gəlir. Tədqiqat göstərir ki, Qərbi Avropada qlobal istiləşmə səbəbindən şərait 80 dəfə, Şərqi Avropada isə 40 dəfə çoxdur. Qərbdə torpaq quruluğunun səviyyəsi qərbdə qazıntı yanacaqlarından çirklənmə səbəbindən beş dəfə, şərqdə isə 11 dəfə çoxdur.*

Quraqlıq adətən az yağıntı ilə əlaqələndirilir, lakin Qərbi Avropanın son qışı yağışlı idi. Alimlər iqlim böhranının Avropada quraqlığı yenidən oyandırdığını, yüksək temperaturun bu yay əsas amil olduğunu söyləyirlər. Təhlilə görə, Qərbi Avropada bu gün baş verən quraqlıq ekstremal kimi təsnif edilir, lakin iqlim böhranından əvvəl bu göstərici orta idi.

Quraqlıq iyun ayının sonuna, yayın əvvəlinə qədər qiymətləndirilib, lakin artıq böyük təsirlərə malikdir. Bir çox ölkə su istifadəsinə təcili məhdudiyyətlər tətbiq edib və İngiltərənin cənubunun əksər hissələrində artıq su borularının istifadəsinə qadağa qoyulub. İspaniya və Fransada ölümcül meşə yanğınları baş verib və fermerlər rekord həddə çatan ən quraq torpaqlarla üzləşərək ciddi ziyan görüblər. Avropada təxminən 9 milyon ton taxıl itkisi gözlənilir, Fransada 50 ilin ən pis qarğıdalı məhsulu gözlənilir və Rumıniya fermerləri bir milyon hektardan çox məhsul itirəcəklər.

Avropada çayların suyu azalır, təmiz su elektrik stansiyalarının istehsalını azaldır və yük gəmilərinin hərəkətini məhdudlaşdırır. Hollandiyanın Lobit şəhərindəki Reyn çayı hazırda 1976-cı ilin isti yayında müşahidə olunan minimum səviyyədən aşağıdır. Alimlər xəbərdarlıq ediblər ki, bu pozuntu ərzaq və enerjinin qiymətini qaldıra bilər və ən çox aşağı gəlirli ailələrə zərbə vura bilər. Tədqiqatçılar bildiriblər ki, insan tərəfindən törədilən iqlim böhranı ilə Avropada quraqlığın yaranması arasında əlaqə güclüdür. İnsanın yaratdığı ekoloji pozuntular artdıqca temperatur yüksəlir, atmosferin susuzluğu sürətlə artır, çaylardan, göllərdən, su anbarlarından və torpaqdan nəm çəkir.

Alimlər deyir ki, 2026-cı il quraqlığı 2022-ci ildə baş verən quraqlıqdan iki ay əvvəl baş verib. Bu il Qərbi Avropada xüsusilə təhlükəli meşə yanğınları şəraiti müşahidə olunub. Kifayət qədər rütubətli başlayan və sonra həddindən artıq quru keçən şərait ekstremal yanğın mövsümü üçün əsas amillərdir, çünki daha çox bitki örtüyü böyüyə və sonradan yanmağa başlaya bilər.

Tədqiqat qrupunun üzvü olan Dr. Mariam Zachariah deyir: “Ən narahatedicisi odur ki, bu şərtlər 1,4C istiləşmə zamanı baş verir. Qlobal emissiyalar proqnozlaşdırıldığı kimi temperaturu 2,8C-yə qaldırarsa, bu intensiv buxarlanma şəraiti ehtimalını ikiqat artıra bilər. Sürətli və aqressiv emissiya azalmaları olmadan Avropa daha isti bir gələcəyə doğru gedir.” BMT-nin iqlim üzrə rəhbəri Saymon Stil deyir: “Getdikcə pisləşən quraqlıqlar planetimizin həddindən artıq istiləşməsi ilə bağlı qırmızı bir xəbərdarlıqdır. Bəşəriyyət çoxlu miqdarda kömür, neft və qaz yandırmağı dayandırana qədər, bu qəddar iqlim quraqlıqları daha da şiddətlənəcək və bütün dünya iqtisadiyyatına baha başa gələcək. Lakin həll yolları da eyni dərəcədə aydındır: bərpa olunan enerjiyə daha sürətli keçmək.”

İyun ayının sonunda baş verən isti hava dalğası Avropa üçün rekord səviyyədə idi. Yüksək temperatur səbəbindən təxminən 20.000 avropalı, o cümlədən İngiltərə və Uelsdə təxminən 2200 avropalının öldüyü təxmin edilir. Cümə axşamı dərc edilən ayrı bir araşdırmada təkcə Böyük Britaniyada yüksək temperatur səbəbindən itirilən iş saatlarının iqtisadiyyata 1 milyard funt sterlinqdən çox ziyan vurduğu təxmin edilir. Böyük Britaniyanın Enerji və İqlim Kəşfiyyatı Bölməsinin rəsmisi Tom Lankaster deyir: “Bu yay gördüyümüz isti hava dalğaları iqlim dəyişikliyinin tək gələcək üçün deyil, elə hazırkı vaxt üçün problem olduğunu sübut etdi.” İngiltərənin Milli Quraqlıq Qrupunun sədri Helen Ueykhem isə deyir: “Quru hava suyumuzu tükəndirir, isti şərait isə sudan daha çox istifadə etməyimiz deməkdir. Bu, çətin bir kombinasiyadır.”

***Lalə Mehralı***

# Gəmiçiliyin inkişafında yeni dövr başlayır

*Dünya dəyişir, yeni texnologiyalar, müasir idarəetmə üsulları yaranır. Təyyarələr, avtomobillər, qatarlar, hətta veloseped və motosikillər müasir tələblərə uyğunlaşdırılsa da, gəmilər öz xüsusiyyətlərini qoruyub saxlayıb. Yaradıldığı zamandan bu günə qədər gəmilər ümumi konstruksiyaya və əsas fiziki xüsusiyyətlərə malikdir. Gəmiçilik hərbi, balıqçılıq, yük və sərnişin daşınmalarda unukal dəniz nəqliyyatıdır. Hələ qədim dövrlərdə, təxmini hesablamalara görə, 8-10 min il əvvəl Misir, Yunanıstan, Roma, Çin və Mesopotamiya dövlətlərdə gəmiçilik inkişaf etmişdir. Həmin ərazilərdə gəmiçilik ticarət, yükdaşınmalarla yanaşı, həm də ticarət yollarının genişlənməsi, hərbi qüdrətin artması məqsədləri üçün istifadə olunmuşdur. Dənizçilər, mühəndislər və idarəetmə mütəxəssisləri bu sahənin inkişafına töhfə verir. Yüz minlərlə insan gəmiçilikdə işləyir və bu sahənin daha da inkişaf etdirilməsinə öz tövhəsini verməyə çalışır. Yeni iş yerlərinin yaradılması gəmiçiliyin cəmiyyətə verdiyi töhfələrdəndir.*

Birmənalı mövqe ondan ibarətdir ki, gəmilərin böyük yüklərin və insanların daşınmasında alternativi yoxdur. Ona görə də, müasir dövrdə dövlətlər daha çox gəmiçiliyin inkişafına diqqət ayırırlar. Hazırda dünyada elə dövlətlər var ki, gəmiçiliyin inkişafı baxımdan öndədir və hər il milyardlarla dollar gəlir əldə edir. Bu baxımdan gəmilər dünya iqtisadiyyatında vacib rol oynayır. Dünyada yeni inşa edilən gəmilərin ümumi həcminin təxminən 91%-i üç ölkənin payına düşür: Çin, Cənubi Koreya və Yaponiya. Ən böyük gəmi “Emma Maersk” hesab olunur. Gəminin uzunluğu 397 metr, eni 63 metrdir. O, hər biri 14 tonluq 11 min konteyneri qəbul edir. Belə yüklərin öh¬dəsindən gəlmək üçün “Emma Maersk” dünyanın ən böyük daxiliyanma mühər¬rikləri ilə təchiz olunub. Cənubi Koreyada inşa edilmiş “Berg Stahl” gəmisi də ən böyük yük gəmilərindəndir. Onun uzunluğu 343 metr, eni 63,5 metrdir. Bu gəminin ümumi yükgötür¬mə qabiliyyəti 364 min tondan artıqdır. “Blue Marlin” gəmsi də nəhəng gəmi hesab edilir. Bu gəmi 2004-cü ildə çəkisi 60.000 ton olan ən böyük neft platforması və qazma qurğusunu Ko¬reyadan Texasa daşıyıb. Bu zaman 15.000 dəniz mili səyahət edib.

Qədim dövrlərdə dənizlərin sahillərində yaşayan xalqlar, xüsusilə də misirlilər, finikiyalılar, çinlilər və yunanlar gəmiqayırmada mühüm irəliləyişlərə imza atıblar. Orta əsrlərdən başlayaraq Avropa ölkələri müxtəlif növ gəmilərdən istifadə edərək yeni torpaqlar kəşf olunmuşdur. Kristafor Kolumbun rəhbərlik etdiyi heyət gəmi ilə 1492-ci ildə ilk dəfə Atlantik okeanını üzüb keçməsi Hindistan, Baham, Kuba və Haiti (Espanyola) adalar kəşf olundu. İspan gəmi sahibləri 1499-1500-cü illərdə Ameriqo Vespuççinin iştirakı ilə Cənubi Amerikaya dörd ekspedisiya təşkil edirlər. Onlar 700-800 mil uzunluğunda sahilləri öyrənirlər və Amazon çayının başlanğıc nöqtəsini aşkar edirlər. 1500-cü ildə Hindistana yollanan portuqaliyalı Pedro Kabralın gəmilərini fırtına Braziliya sahillərinə atır, buranı o Santa-Krus adası adlandırır. Sonralar Portuqaliya tacirləri buraya boyaq ağacı (Braziliya) üçün üzməyə başlayırlar.

### Azərbaycan Xəzər dənizində ən böyük ticarət donanmasına malikdir

XIX və XX əsrlərdə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi Xəzəryanı ölkələrə müxtəlif təyinatlı yüklər daşıyan ən böyük gəmiçilik şirkəti kimi fəaliyyət göstərib. Hazırda 250-dək müxtəlif təyinatlı gəmisi olan Azərbaycan Xəzər dənizində ən böyük ticarət donanmasına malikdir. Ölkəmizdə gəmiçiliyin fəaliyyəti təkcə Xəzərlə məhdudlaşmayıb. Eyni zamanda Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinə məxsus gəmilər Xəzərdə və Xəzərdənkənar hövzələrdə fəaliyyət göstərir. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin 2013-cü il 22 oktyabr tarixli Sərəncamı ilə Azərbaycanda mövcud olan iki böyük donanmanın - Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xəzər Dəniz Neft Donanmasının birləşdirilərək yenidən təşkil olunması yolu ilə “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC yaradılıb. Bu gün “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC dəniz nəqliyyatı sahəsində fəaliyyət göstərən donanmalarını vahid formada birləşdirərək qarşıya qoyulan vəzifələri yüksək



səviyyədə və operativ yerinə yetirmək əzmindədir. Bu yaxınlarda Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası “Gəmi heyəti üzvlərinin siyahısının, sərnişinlərin siyahısının, gəmi, radio və maşın jurnallarının aparılması Qaydaları”nı təsdiqləməklə kəmiçiliyin inkişafında yeni mərhələnin əsası qoyulub. Rəqəmsal İnkişaf və Nəqliyyat naziri Rəşad Nəbiyev imzaladığı yeni qərara əsasən bundan sonra gəmi heyəti üzvlərinin siyahısı gəminin kapitanı tərəfindən aparılacaq. Məlumatlar belə olacaq: Gəminin adı, gəminin Beynəlxalq Dəniz Təşkilatı nömrəsi, gəminin çağırış siqnalı, gəminin səfər nömrəsi,gəminin giriş/çıxış limanının və ya dəniz əməliyyatları bazasının adı, gəminin limana və ya dəniz əməliyyatları bazasına girişin/çıxışın tarixi, gəminin milli mənsubiyyəti (bayraq dövləti), gəminin tərk etdiyi son limanın və ya dəniz əməliyyatları bazasının adı.Bundan başqa, gəmi heyəti üzvlərinin siyahısına gəminin hər bir heyət üzvü haqqında aşağıdakı məlumatlar daxil edilir: soyadı, adı, gəmidə tutduğu vəzifə, vətəndaşlığı və ya vətəndaşlığı olmayan şəxsin daimi yaşadığı ölkənin adı, doğulduğu yer və tarix,cinsi, dənizçinin şəxsiyyət sənədi, olmadığı təqdirdə şəxsiyyəti təsdiq edən müvafiq sənədi və ya sərhədkeçmə sənədi barədə məlumatlar (növü, seriyası, nömrəsi, sənədi verən dövlət və etibarlılıq müddəti). Bütün bunlar onu deməyə əsas verir ki, artıq Azərbaycanda gəmiçiliyin inkişafında yeni dövr başlayır. Bundan sonra Azərbaycan gəmiləri beynəlxalq sularda Azərbaycanın qürurla dalğalanan bayrağı altında üzəcək və ölkəmizin qitələrlə əlaqələrinin birləşdirilməsində əsaslı rolunu daha da artıracaq.

***İ.ƏLİYEV***

SON SƏHİFƏ
SƏS
24 iyul
2026-cı il


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Ziya LTD – 0124977696, 0503067744**
**7. Bakmətbuat MMC 0502644010**

**1 nüsxə 1 aylığı 8 AZN**
**6 aylıq 48 AZN**
**1 illik 96 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!




# Qan analizi ilə orqanlarınızın yaşını öyrənmək mümkün olacaqmı?

***Son illərdə qocalma biologiyası sahəsində aparılan tədqiqatlar göstərir ki, insanın təqvim yaşı (xronoloji yaş) ilə orqanlarının faktiki funksional vəziyyəti (bioloji yaş) eyni olmaya bilər. Məhz buna görə də qan analizi vasitəsilə orqanların bioloji yaşını müəyyən edən yeni texnologiyalar hazırlanır. Bu üsullar gələcəkdə ürək-damar xəstəlikləri, Alzheimer, böyrək çatışmazlığı və digər yaşla əlaqəli xəstəliklərin erkən aşkarlanmasına kömək edə bilər. SİA mövzu ilə bağlı araşdırma edib.***

ARAŞDIRMA

## Bioloji yaş nədir?

İnsan doğulduğu gündən hesablanan yaş xronoloji yaş adlanır. Bioloji yaş isə orqanizmin və ayrı-ayrı orqanların nə qədər "köhnəldiyini" göstərən göstəricidir. Məsələn, 50 yaşlı iki insanın xronoloji yaşı eyni olsa da, onlardan birinin ürəyi 40, digərinin isə 65 yaş səviyyəsində işləyə bilər.

Bu fərq genetika, həyat tərzi, qidalanma, fiziki aktivlik, siqaret, stress, yuxu keyfiyyəti və xroniki xəstəliklərlə əlaqədardır.

## Qan analizi ilə orqanların bioloji yaşı necə müəyyən edilir?

Ən yeni metodlardan biri qan plazmasında olan minlərlə zülalın (proteinlərin) analizinə əsaslanır.

Orqanizmdə hər bir orqan özünəməxsus zülallar ifraz edir:

-ürək,
-beyin,
-qaraciyər,
-böyrəklər,
-ağciyərlər,
-mədə-bağırsaq sistemi,
-immun sistem və digər toxumalar.

Tədqiqatçılar süni intellekt və maşın öyrənməsi alqoritmləri vasitəsilə bu zülalların səviyyəsini analiz edərək hər orqanın bioloji yaşını hesablayırlar. Əgər müəyyən orqana aid protein profili həmin insanın xronoloji yaşından daha yaşlı görünürsə, həmin orqanda sürətlənmiş qocalma ehtimal edilir.

## Stanford Universitetinin araşdırması

2025-ci ildə Stanford Medicine alimləri bu sahədə ən geniş tədqiqatlardan birini həyata keçiriblər. Araşdırmada təxminən 45–50 min nəfərin qan nümunəsi araşdırılıb və qanda minlərlə protein analiz edilib. 11 əsas orqan sistemi üzrə bioloji yaş hesablanıb.

Qiymətləndirilən sistemlər:

-beyin,
-ürək,
-arteriyalar,
-ağciyərlər,
-qaraciyər,
-böyrəklər,
-mədəaltı vəzi,
-bağırsaqlar,
-immun sistem,
-əzələlər,
-piy toxuması.

Ən diqqətçəkən nəticələr

Araşdırmaya görə insanların təxminən üçdə birində ən azı bir orqan bioloji baxımdan yaşından xeyli "qoca" idi. Müəyyən edilib ki, bioloji cəhətdən yaşlı ürək gələcək ürək-damar xəstəliklərinin riskini artırır. Yaşlı böyrəklər böyrək funksiyasının pozulması ilə əlaqələndirilir. Yyaşlı qaraciyər metabolik problemlərlə əlaqə göstərir. Yaşlı immun sistem infeksiyalar və ümumi ölüm riski ilə əlaqəli olub.

## Beyin niyə xüsusi əhəmiyyət daşıyır?

Tədqiqatın ən mühüm nəticələrindən biri beynin bioloji yaşının insanın ümumi ömür uzunluğunu ən güclü proqnozlaşdıran göstəricilərdən biri olmasıdır. Alimlər bildirirlər ki bioloji baxımdan "gənc" beyinə sahib insanların uzunömürlülük ehtimalı daha yüksəkdir. Bioloji cəhətdən yaşlı beyin Alzheimer xəstəliyi və erkən ölüm riskini artırır. Stanford tədqiqatının rəhbəri professor Tony Wyss-Coray beynin "uzunömürlülüyün qapıçısı" olduğunu vurğulayıb.

## Xəstəlik riskləri necə proqnozlaşdırılır?

Bioloji yaş testi xəstəliyin özünü aşkar etmir.

Onun əsas üstünlüyü riski simptomlar yaranmamış illər əvvəl göstərə bilməsidir.

Məsələn:

-ürəyin bioloji yaşı yüksəkdirsə, gələcəkdə ürək çatışmazlığı və ya infarkt riski arta bilər;

-beynin bioloji yaşı yüksəkdirsə, Alzheimer və digər neyrodegenerativ xəstəliklərin ehtimalı yüksələ bilər;

-immun sistemin sürətlə qocalması infeksiyalara və bəzi xroniki xəstəliklərə meyilliliyi göstərə bilər.

## Bioloji yaşı azaltmaq mümkündürmü?

Mütəxəssislər bildirirlər ki, bioloji yaş dəyişə bilən göstəricidir. Araşdırmalar aşağıdakı amillərin bioloji qocalmanı ləngidə biləcəyini göstərir:

* siqaretdən uzaq durmaq;
* müntəzəm fiziki aktivlik;
* Aralıq dənizi tipli qidalanma;
* keyfiyyətli yuxu;
* stressin idarə olunması;
* arterial təzyiq, şəkər və xolesterinin nəzarətdə saxlanılması;
* normal bədən çəkisinin qorunması.

Qan analizi əsasında orqanların bioloji yaşının hesablanması fərdiləşdirilmiş tibbin perspektivli istiqamətlərindən biri hesab olunur. Bu texnologiya xəstəlikləri diaqnoz qoymaqdan daha çox, onların yaranma riskini illər əvvəl qiymətləndirməyə imkan verə bilər. Alimlər hesab edirlər ki, gələcəkdə belə testlər profilaktik müayinələrin mühüm hissəsinə çevrilərək insanların sağlam həyat müddətinin uzadılmasına və xəstəliklərin daha erkən mərhələdə qarşısının alınmasına kömək edə bilər.

***Ayşən Vəli***

# Toyda gəlinin başına gələn gözlənilməz hadisə müzakirə yaratdı

Sosial şəbəkələrdə yayılan toy görüntüləri qısa zamanda izləyicilərin diqqətini cəlb edib.

Milli.Az xəbər verir ki, kadrlarda toy mərasimi zamanı gözlənilməz hadisə yaşanır. Belə ki, qaçaraq hərəkət edən azyaşlı uşaq gəlinin fatasına ilişərək yerə yıxılır.



Hadisənin təsirindən gəlinin başındakı fata da yerindən çıxır. Gözlənilməz vəziyyət gəlini qısa müddətlik qorxudub və arzuolunmaz vəziyyətə düşüb, mərasimdə iştirak edənlər isə nə baş verdiyini anlamağa çalışıblar.

Toyda yaşanan bu anlar ətrafdakıların diqqətini çəkib, görüntülər isə sosial şəbəkələrdə sürətlə yayılaraq geniş müzakirələrə səbəb olub.

İzləyicilər hadisəyə fərqli münasibət bildiriblər. Bəziləri bunu təsadüf adlandırsa, digərləri isə toyun ən yaddaqalan anlarından biri kimi qiymətləndiriblər.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**
**Tiraj: 2000**